BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2012

# ƏDƏBİYYATŞÜNASLIQ

**УОТ 82.0; 82.316.3; 82(091)**

## QASIM BƏY ZAKİR REALİZMİNİN XALQIN MİLLİ DÜŞÜNCƏSİNİN FORMALAŞMASINDA YERİ

**Mətanət Saraçlı (Həsənova)**
***Bakı Dövlət Universiteti***
***M.Щасанова@mail.ru***

*Məqalədə Azərbaycan realist şeirinin Vaqifdən sonrakı inkişafında Zakirin atdığı addımlar dəyərləndirilir, ictimai satiranın yaradılmasında Zakirin xidməti qiymətləndirilir. Ümumiyyətlə, Qasım bəy Zakir yaradıcılığına yeni düşüncə işığında nəzər salmaq məqalənin ana xəttini təşkil edir.*

**Açar sözlər**: satira, realizm, təmayül, təkamül, xronika

XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatında ictimai – satirik şeirin inkişafında Q.Zakirin rolu danılmazdır. Poeziyada fikir sadəliyi və dil büllurluğu axtaran M.F.Axundzadə təsadüfi deyildi ki, milli şeirin sabahına doğru gedən yolun başlanğıcında iki şəxsi görürdü. Bunlardan biri realist poeziyanı bütün detalları ilə gerçəkləşdirən Vaqif idisə, digəri poeziyamızın dövrün yeni ictimai hadisələrinə müdaxiləsini reallaşdıran və bu sahədə ciddi addımlar atan Q.Zakir idi (1784-1857).

Poeziyada realizmin formalaşması və kamala çatması üçün əvvəlcə qüvvətli satiranın yaranması lazım idi. Bu baxımdan o, Vaqif realizminin hüdudlarını böyüdür, tənqidi realizmə doğru inkişafın yolunda Vaqiflə Seyid Əzim və Sabir arasında ədəbi körpü rolunu öz öhdəsinə götürür. M.T.Axundzadə realizmin dramaturgiyada banisi idisə poeziyada bərqərar olan maarifçi – realist təmayülün ilk böyük xadimi isə Qasım bəy Zakirdir.

Vaqif realizmi gözəlliyi tərənnüm edirdisə, Zakir lirikası bu realizmin gücü ilə eybəcərliyin inkarını poetik detallarla əks etdirir.

Zakirin ictimai məzmunlu mənzumələri və satiraları dövrlə, zamanla qarşı – qarşıya gəlməyin bariz nümunəsidir. Zakirin həcvləri öz rəqiblərini tənqid və ifşa vasitəsi olmaqla yanaşı şairin bədii sözə münasibətinin ifadəsidir.

Dəqiq realist təfərrüat və detallar, konkret gerçəkliyin ictimai, tarixi, hətta siyasi xronikası Zakirdə sistem təşkil edir.

Dövrun aktual problemlərini əks etdirmək baxımından Zakir satiraları dəyərlidir. Azərbaycan xalq məişətinin bir çox tipik xüsusiyyətlərini bədii cəhətdən ümumiləşdirməyə çalışan sənətkar, səlahiyyət sahiblərinin əxlaq və rəftarını, dövrün eybəcərliklərini tənqid və ifşa etmək kimi mühüm vəzifəni poeziyanın əsas tələbinə çevirir. Zakirin gülüşündə acı göz yaşları vardır. O, gözü önündəki hadisələrə soyuq münasibət bəsləyə bilmirdi. Ədalətsizliklərin aradan qaldırılmasına çalışır, bu yolda çoxlu maneələrlə qarşılaşırdı:

Polojenya nəqli ta olub möhkəm,
Gərək bəy azalda zülmün dəmadəm,
Dəxi də artırır bu əhli-sitəm,
Yanında çalınan zurnayə bir bax.

Öz etiraz və inkarlarında şairin mövqeyi sözün geniş mənasında kütlənin mənafeyi və mövqeyi ilə üst-üstə düşmür və əksinə bəzən "rəiyyətlə boyunduruq yoldaşı" edildiyindən narazı qaldığını da bildirir. Zakir "ictimai bir bəla kimi" bəyliyə yox, "bəy" adını ləkələyən ayrı-ayrı bəylərə qarşı çıxır. Onun satirasında ifşanın hüdudları və ifşadan güdülən məqsəd yalnız bir halda – məlum "bolşevik estetika" meyarı ilə ölçüləndə Zakir realizminin "zəifliyi" və "məhdudluğu" kimi görünür. Bu məsələlərə yeni düşüncə ilə yanaşanda isə bunların əksini görürük.

Zakir bütünlükdə dinə, islama yox, "islamı xələldar edən" vaizlərə qarşı çıxır. Onun realizmi hansısa quruluşu dağıtmaq, yeni quruluş yaratmaq kimi vulqar bolşevik zəifliyindən uzaq idi. Zakirə görə normal əxlaq amilini fərd və cəmiyyət səhiyyəsində rəhbər tutmadan hər hansı tərəqqidən söhbət gedə bilməzdi.

Onun realizmi hər hansı tərəqqidə mənəvi təkamül və tədrici islahat idealına xidmət edirdi ki, məhz bu cəhət onu özünə qədərki satira və poeziya ustadları ilə birləşdirirdi.

Bunlar nəzərə alınmadığı üçün Zakir satirası əsl mahiyyəti ilə görünə bilməmişdi. Onun satirasında özündən əvvəlki ənənənin inqilabi inkarı yoxdur, irsin təkamülü ideyası var ki, bu ideya da birbaşa milli şüurun formalaşmasına xidmət edən amildir.

Orta əsrlərin realist lirikasında çox şey – Vaqifdə, realist satirada isə hər şey – Zakirdə öz təbii məntiqi yekununa çatır. Yerli məmurlar, bəy və tacirlər, müstəmləkə rejimi, onun konkret imkanları burada adı və soyadı ilə verilsə də bu təfsilat onun yaradıcılığında qanunauyğunluq, həcm isə satira səviyyəsində ümumiləşə bilir.

Sinif anlayışından uzaq olan ümumi xalq, ümumi millət anlayışı maarifçiliyin ümumi konsepsiyasına daxil idi ki, Zakir satirası da bu tələblərə cavab verdiyi üçün hardasa bu konsepsiya ilə birləşirdi.

Qasım bəy Zakirin irsinin əsas tərkib hissəsini təşkil edən ictimai satiraların əsas qəhrəmanı islamı məzhəb və təriqətlərə parçalayan, onu formal

ibadətdən ibarət hesab edən, müsəlmanlığın əxlaq və fəlsəfəsini saxta ehkam və xürafat səviyyəsinə endirən, dini, xüsusən şəriət məhkəmələrini açıq – aşkar soyğunçuluq vasitəsinə çevirən ikiüzlü ruhanilər, tüfeyli mülkədar, bəy, xan və çar məmurlarıdır.

"Elat əhlinin tərifi və qazının əsl – nəsəbi haqqında", "Şuşa mollaları haqqında", "Qarabağ qazisinə" satiraları, "Bax" rədifli şeiri Zakirin xürafatı ifşa edən mənzumələri üçün səciyyəvidir.

Zakirin satirik mənzumələrində öz əksini tapan ifadələr, obrazlar, rəmzlər başdan – başa konkret, realist sosial detallardan ibarətdir və Qarabağda bugünki vəziyyət üçün də ibrətli səslənir.

Zakir satirası üçün bütünlükdə nikbin, demokratik ruh səciyyəvidir. Buradakı kinayə, gülüş, göz yaşı xalqın, torpağın qəzəbi və kədəri ilə aşılanmışdır. "Dəvə və eşşək", "Qurd, çaqqal və şir", "İlan, dəvə, tısbağa", "Tülkü və qurd", "Tısbağa, qarğa, kəsəyən, ahu" kimi məlum təmsillərində şair böhran keçirən mənəviyyat, əxlaq əleyhinə çıxırdı.

Qasım bəy Zakirin poeziyası maarifçi – realist şeirin tarixində özünəməxsus, təkrarsız fərdi mövqe tutur. XIX əsrdə milli şüurda sosial intibahın oyanması, maarifçi satiranın yaranması, milli dilin büllurlaşması sahəsində M.F.Axundzadədən əvvəlki ən böyük xidmət məhz Qasım bəy Zakirə məxsusdur.

Axundzadə ilə dostluğu və bəzi məsələləri onunla məsləhətləşməsi də Zakirin realist düşüncəsinin formalaşmasında müstəsna rola malikdir.

Q.Zakirin Azərbaycan realist şeirinin təkamülündəki yeri və milli düşüncəmizin formalaşmasındakı xidməti ictimai məzmunlu şeirlərində və satiralarında daha parlaq ifadə olunmuşdur. Bu satiralarda Vaqiflə ədəbiyyatımızda gerçəkləşən yeni məzmun və yeni düşüncə daha uğurlu nailiyyətlər qazandı.

Onun satiralarında olan subyektiv ünsürlər heç də onun bədii və ictimai əhəmiyyətini azaltmır. Çünki şairin başqa mənfi tipə nifrətindən doğan satiralarında da hakim ictimai quruluşun bir çox tənqidi münasibətdən eybəcərlikləri sənət dili ilə tipikləşdirilmiş və ümumiləşdirilmişdir.

Millilik özünüdərkdir. Özünü dərk etməyənlər özgəni də dərk edə bilməzlər. Zakir bir fərd olaraq ona qarşı yönələn haqsızlıqlara etiraz edərkən zamanla qarşı-qarşıya gəlir, ictimai-siyasi mühitlə üz-üzə dayanır. Onun estetik mövqeyində də kifayət qədər müəyyənlik, konkretlik var. Onun dövründə zülmün daşıyıcısı əlində hakimiyyət olan təbəqə olduğuna görə Zakirin tənqid hədəfi də həmin təbəqə olmuşdur. Şair rəiyyəti tənqid etmiş olsaydı belə, onun şeirlərinin bədii dəyəri, milli düşüncənin təkamül tarixindəki rolu və əhəmiyyəti azalmayacaqdı. Hər iki halda o haqsızlığa, qanunsuzluğa, hərc-mərcliyə, mənəviyyatsızlığa qarşı çıxmış olacaqdı ki, şüuraltı qatda bu maariflənməyə, maarifçiliyə xidmət olacaqdı. Milli şüurun təkamül yolunda realist satiranın katalizator rolu danılmazdır. Cəmiyyətin bir üzvü olan fərd nə qədər savadlı, dünyagörüşlü olarsa, onun idarəçilikdə iştirakı nə qədər təmin olunarsa, bundan cəmiyyət ancaq qazanar və öz sivilliyini təmin etmiş olar.

Zakir satirası da anarxiya, rüşvətxorluq, ədalətsizlik qanunlarının yol açdığı bir mühitdə azadlıq, ədalət duyğuları axtarışına çıxan bir fərdin arzularının bədii ifadəsidir.

Beləliklə, Zakir Azərbaycan ədəbiyyatında maarifçi realizmin və satiranın görkəmli nümayəndəsi kimi M.F.Axundovdan əvvəl öz dövrünün qabaqcıl fikir və meyllərini ifadə edən bir sənətkar olmuşdur.

## ƏDƏBİYYAT


1. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Вакы: Маариф, 2006, 486 s.
2. Məmmədov K. Q.Zakir. Вакы: Елм, 1957, 256 s.
3. Qarayev Y. Azərbaycan ədəbiyyatı. XIX və XX yüzillər. Вакы: Маариф, 2002, 737 s.
4. Osmanoğlu M. A.Zamanovun 100 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Вакы, 2011, s. 174-177.


## МЕСТО РЕАЛИЗМА ГАСЫМ БЕК ЗАКИРА В ФОРМИРОВАНИИ У НАРОДА НАЦИОНАЛЬНОГО МЫШЛЕНИЯ


**М.(САРАДЖЛЫ) ГАСАНОВА**


## РЕЗЮМЕ


В статье показана роль Закира в развитии азербайджанских реалистических стихов после Вагифа. Оценены заслуги Закира в зарождении общественной сатиры. Основная цель статьи - показать наследие Закира через призму нового мышления.



**Ключевые слова**: сатира, реализм, уклон, эволюция, хроника


## THE PLACE OF GASIM BEY ZAKIR'S REALISM IN THE FORMATION OF NATIONAL THINKING


**M.(SARAJLI) HASANOVA**


## SUMMARY


The article studies Zakir's role in the development of the Azerbaijan poetry after Vagif. Zakir's services are highly appreciated in the formation of social satire. New thinking in Gasim bey Zakir's creativity is the objective of the article.



**Key words**: satire, realism, deviation, evolution, chronicle